ISSN: 2706-6185
e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/55/6-11

**Elza Mollayeva**
Bakı Dövlət Universiteti
pedaqogika elmləri doktoru
https://orcid.org/0000-0002-5128-8214
elzamollayeva@rambler.ru

# Pedaqoji elmlər sistemində pedaqoji antropologiyanın yeri və rolu

## Xülasə

Məqalədə pedaqoji antropologiyanın sosial-siyasi və psixoloji-pedaqoji müstəvidə tərbiyənin, təhsilin keçdiyi tarixi təkamül yolu geniş şərh edilmişdir. Qədim dövrdən müasir zəmanəmizə qədər bəşəriyyətin təkmilləşməsində, insanın özünün fərddən şəxsiyyətə çevrilməsində pedaqogikanın-təhsilin, tərbiyənin, təlimin və ümumilikdə inkişafın rolu bu fənn vasitəsilə tələbələrə aşılanır. Son illərdə Azərbaycan pedaqoji elminə daxil edilmiş pedaqoji antropologiyanın mahiyyəti nədən ibarətdir və o özündə nəyi ehtiva edir? Onun spesifikliyi nədən ibarətdir? Bu elmin əsas istiqaməti olan "pedaqoji antropologiya" termini necə yaranmış və təşəkkül tapmışdır?

Pedaqoji antropologiya pedaqogikaya onun əsas tərkib hissələrindən biri kimi daxil edilmişdir və pedaqoji antropologiyanın mahiyyətini daha yaxşı anlamaq üçün pedaqogika elmini dərindən mənimsəmək lazımdır. Pedaqogika insanın və insan qruplarının təlim, təhsil və tərbiyə vasitəsilə təkmilləşdirilməsini nəzərdə tutan elmdir. Pedaqoji antropologiya pedaqogikanın bünövrəsini təşkil edir və insanın təlim-tərbiyə prosesinin öyrənilməsini pedaqogikanın bir qolu olan pedaqoji antropologiya həyata keçirir. Bu istiqamət insan təbiəti, təlim və tərbiyəsi, insan qrupları və cəmiyyət, ümumilikdə insana aid olan bütün suallara cavab verir. Struktur baxımından pedaqoji antropologiyanın iyerarxiyasını piramida şəklində təsəvvür etsək, onun fundamental bazasını tərbiyə prosesinin həm obyekti, həm də subyekti kimi insan təşkil edir.

***Açar sözlər:*** *antropologiya, pedaqoji antropologiya, təhsil tarixi, pedaqogika tarixi, pedaqogika nəzəriyyəsi*

**Elza Mollayeva**
Baku State University
Doctor of Pedagogical Sciences
https://orcid.org/0000-0002-5128-8214
elzamollayeva@rambler.ru

# The Place and Role of Pedagogical Anthropology in the System of Pedagogical Sciences

## Abstract

The article extensively explains the historical evolution of upbringing and education in the socio-political and psychological-pedagogical levels of pedagogical anthropology. From ancient times to the present day, the role of pedagogy—education, upbringing, training, and development in general—in the improvement of humanity, in the transformation of man from an individual into a personality, is instilled in students through this subject. What is the essence of pedagogical anthropology, which has been included in Azerbaijani pedagogical science in recent years, and what does it contain? What is its specificity? How did the term "pedagogical anthropology," the main direction of this science, arise and take shape?


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Pedagogical anthropology is included in pedagogy as one of its main components, and in order to better understand the essence of pedagogical anthropology, it is necessary to deeply master the science of pedagogy. Pedagogy is a science that involves the improvement of man and groups of people through training, education, and upbringing. Pedagogical anthropology forms the foundation of pedagogy, and the study of the human education process is carried out by pedagogical anthropology, which is a branch of pedagogy. This direction answers all questions related to human nature, education and upbringing, human groups and society, and man in general. If we imagine the hierarchy of pedagogical anthropology in terms of structure as a pyramid, its fundamental base is man as both the object and the subject of the educational process.

***Keywords:*** *anthropology, pedagogical anthropology, history of education, history of pedagogy, theory of pedagogy*

## Giriş

"İnsan nədir?" İnsan qaz kameralarını icad edən, eyni zamanda başını dik tutub dodaqlarında dua oxuyaraq bu qaz kameralarına girən bir varlıqdır."

*V.Frankl, Avstriya filosofu və psixoloqu*

Pedaqoji antropologiya sosial-siyasi və psixoloji-pedaqoji müstəvidə insanın tərbiyəsinin, təhsilinin keçdiyi tarixi təkamül yolunu ehtiva edir. Qədim dövrdən müasir zəmanəmizə qədər bəşəriyyətin təkmilləşməsində, insanın özünün fərddən şəxsiyyətə çevrilməsində pedaqogikanın-təhsilin, tərbiyənin, təlimin və ümumilikdə inkişafın rolu bu fənn vasitəsilə tələbələrə aşılanır. Son illərdə Azərbaycan pedaqoji elminə daxil edilmiş pedaqoji antropologiyanın mahiyyəti nədən ibarətdir və o özündə nəyi ehtiva edir? Onun spesifikliyi nədən ibarətdir? Bu elmin əsas istiqaməti olan "pedaqoji antropologiya" termini necə yaranmış və təşəkkül tapmışdır?

Sosial-pedaqoji antropologiya antropologiya elminə istinad edir və "Antropologiya" sözünü ilk dəfə antik dövrün böyük mütəfəkkiri Aristotel işlətmişdir. O, özünün *Nikomax etikası* əsərində yalnız bir dəfə "antropoloqios" sözünü işlətmişdir ki, bu da "insan haqqında danışan" elm anlamını daşıyır" (Məmmədov və Tağıyev, 2014, s. 12).

Q.M.Kodzhaspirovaya görə, "Antropologiyanın (insanşünas-lıq, humanistika) pedaqogikanın— insan inkişafı elminin çox yaxın qohumu olduğunu təxmin etmək çətin deyil. Əslində, bəzi tədqiqatçılar "pedaqogika" anlayışını "andraqogiya" və "antropologiya" anlayışları ilə əvəz etməyi tamamilə qanuni hesab edirlər. Yeganə sual antropologiyanın pedaqogi-kanı mənimsəməsidir, yoxsa pedaqogikanın antropologiyanı mənimsəməsidir. Hər necə olsa, pedaqoji antropologiya bu gün getdikcə daha çox öz varlığını hiss etdirir" (Kodzhaspirova, 2005, s. 87).

E.Ə.Mollayeva qeyd edir ki, "Baxmayaraq ki, dünyada gedən siyasi-sosial-iqtisadi proseslərin mərkəzində insan subyekti durur, ancaq insanın zəmanəmizə qədər keçdiyi təkamül yolunun elmi-nəzəri və elmi-təcrübi cəhətdən öyrənilməsi insanın həm tarixi keçmişimizdəki əhəmiyyətli rolunu, həm də gələcək perspektivlərdə yerini müəyyənləşdirməyə imkan verir. Bu mənada, onun sosial-pedaqoji-antropoloji inkişaf xüsusiyyətlərinin öyrənilməsi aktualdır" (Mollayeva, 2023, s. 16).

Pedaqoji antropologiyanın müasir dövrdə təhsilin inkişafı müstəvisində tədqiq edilməsi bu sahədəki prioritetlərimizin müəyyənləşdirilməsinə öz töhfəsini verə bilər.

### Tədqiqat

"Pedaqoji antropologiya" termini XIX əsrin 60-cı illərində Rusiyada yaranmışdır və bu termini ilk dəfə N.İ.Piroqov (1810-1881) özünün məşhur "Həyat sualları" (Piroqov, 1982) məqaləsində işlətsə də, onun mahiyyətini daha geniş şəkildə rus pedaqogikasının atası K.D.Uşinski (1824-1870) özünün çoxcildlik *İnsan tərbiyənin predmeti kimi. Pedaqoji antropologiyanın təcrübəsi* əsərində (Uşinskiy, 1990) dəqiqləşdirmiş, məzmununu daha da zənginləşdirmişdir. XIX əsrdə bu terminin yaranması təsadüfi deyildi və xalq maarif sistemində mövcud olan və təhsilin inkişafına əngəl törədən mürtəce xarakterli ənənələr yeni yanaşmalar üçün zərurət yaratdı. Təhkimçilik hüququnun ləğvi cəmiyyətdəki bir çox stereotipləri sındırdı, eyni zamanda, yeni sosial-psixoloji-pedaqoji və hüquqi problemlərin yaranmasına yol açdı. Beləliklə də Rusiyada inqilabi hərəkatın getdikcə güclənməsi

materialist, ateist və xüsusilə də humanist baxışların sürətlə yayılmasına, məktəblərin təşkilinin, təhsilin məzmununun, pedaqoji dünyagörüşün dəyişilməsinə rəvac verdi. Yalnız intellektual səviyyənin yüksəldilməsinə deyil, həm də insan şəxsiyyətinin təbiətəvarilik prinsipi ilə təkamülünə əsaslanan pedaqogikanın yaranması zamanın tələbi kimi ortaya çıxdı. İnsanın inkişafı ilə tərbiyə arasındakı sıx əlaqəni ehtiva edən bu yeni pedaqogika antropoloji bazaya əsaslanırdı və insanın inkişafında tərbiyə və təlimin inkişaf tarixini ifadə edirdi. Şübhəsiz ki, "pedaqoji antropologiya" termininin yaranmasına dünyada və eləcə də Rusiyada getdikcə populyarlaşan "darvin antropologiyası" öz təsirini göstərdi. Pedaqoji antropologiyanın yaradıcıları olan N.İ.Piroqov və K.D.Uşinski üçün "pedaqoji antropologiya" elə "yeni pedaqogika" terminini əvəz edirdi.

*Bu elmi istiqamətin yaranmasında hər iki alimin yanaşmaları əsaslı rola malikdir və bu yanaşmalar özündə aşağıdakı ideyaları əks etdirir:*

- İnsan və uşaq cəmiyyət üçün əsas sosio-mədəni dəyərdir və N.İ.Piroqova görə, həm xalq, həm dövlət, həm də bütün bəşəriyyət ancaq insan üçün, insanın mövcudluğu üçün vacib olan sosial-siyasi qurumlardır. Uşaqların tərbiyəsi isə bu kontekstdə hər hansı uğurun əldə edilməsi üçün vasitə yox, məqsədin özüdür (Piroqov, 1985).
- N.İ.Piroqov və K.D.Uşinskiyə görə, tərbiyə pedaqoji prosesin əsas məzmununa daxil olan anlayışlardan biridir və onun vəzifələrinə bunlar daxildir:
- "Tərbiyənin əsas məqsədi əsgər, hüquqşünas, dənizçi yetişdirmək deyil, insan və vətəndaş yetişdirməkdir" (Piroqov, 1985, s. 96).
- Tərbiyənin məqsədi "İnsanda həyatın təsadüfi çətinliklərinə sinə gərməyi bacarmaq, pis vərdişlərdən uzaq durmaq, bütün hadisələrdən ancaq müsbət nəticə çıxarmaq kimi xarakterik xüsusiyyətləri formalaşdıran vasitələrin müəyyənləşdirilməsidir" (Uşinski, 1990, s. 43).
- Bizi bərabər olmayan mübarizədə qalib gəlmək üçün və neqativ hadisələrə müqavimət üçün hazırlayır (Piroqov, 1985).

N.İ.Piroqov və K.D.Uşinski ilə bərabər P.F.Kapterev də əminliklə söyləyirdi ki, hər bir pedaqoq-müəllim antropoloq olmalıdır, şəxsiyyətin hərtərəfli inkişafını dərindən mənimsəməlidir, psixologiya, fiziologiya, mədəniyyət tarixi, biologiya ilə yaxından tanış olmalıdır (Kapterev, 1982, s. 36).

Beləliklə də yeni pedaqogika tərbiyə prosesinə insanın inkişaf qanunauyğunluqları kontekstində yanaşırdı və bu da pedaqogikanın "təbiətəuyğunluq" prinsipi ilə üst-üstə düşür. Pedaqoji antropologiyada pedaqoji fəaliyyət uşağın təfəkkürünün, iradəsinin, hiss və duyğularının inkişafına, fiziki-mənəvi-ruhi cəhətdən təkmilləşməsinə, beləliklə də onun ümumi inkişafına istiqamətlənmişdir. Uşaqların fiziki, əqli və mənəvi inkişafı üçün imkanların yaradılması pedaqoji antropologiyanın əhəmiyyət verdiyi məsələlərdir.

Pedaqoji antropologiya pedaqogikaya onun əsas tərkib hissələrindən biri kimi daxil edilmişdir və pedaqoji antropologiyanın mahiyyətini daha yaxşı anlamaq üçün pedaqogika elmini dərindən mənimsəmək lazımdır. Pedaqogika insanın və insan qruplarının təlim, təhsil və tərbiyə vasitəsilə təkmilləşdirilməsini nəzərdə tutan elmdir.

*Pedaqoji biliklər üç sahəni özündə birləşdirir:*

1. Pedaqogika nəzəriyyəsi.
2. Təhsil, təlim və tərbiyə nəzəriyyəsi.
3. Pedaqoji antropologiya.

İnsanın təlim-tərbiyə prosesinin tarixi inkişafının öyrənilməsini pedaqogikanın bir qolu olan pedaqoji antropologiya həyata keçirir. Bu istiqamət insan təbiəti, təlim və tərbiyəsi, insan qrupları və cəmiyyət, ümumilikdə insana aid olan bütün suallara cavab verir. Struktur baxımından pedaqoji antropologiyanın iyerarxiyasını piramida şəklində təsəvvür etsək, onun fundamental bazasını tərbiyə prosesinin həm obyekti, həm də subyekti kimi insan təşkil edir. Bu iyerarxiyada ilk yeri təhsil nəzəriyyəsi tutur və burada "piramidanın "tacını" elm və sənət kimi pedaqogika haqqında fikirlər—ümumi pedaqogika təşkil edir" (Stolyarenko, 2004, s. 56).

Bu piramidanın möhkəmliyi onun özülü ilə xarakterizə edilir ki, buraya da pedaqogikanın elmi aparatı—anlayışları, fərziyyələri və nəzəriyyələri, faktları aid etmək olar. Pedaqoji antropologiya

tərbiyəyə aid nəzəriyyələrin inkişaf xəttini, onların sosial-pedaqoji və tarixi əhəmiyyətini müəyyən edir.

**Beləliklə də pedaqoji antropologiya:**

1. Tərbiyə prosesinin həm obyekti, həm də subyekti kimi təhsil alan və tərbiyə edilən insan, bu prosesin ikinci tərəfi olan pedaqoq haqqında, tərbiyə və təhsil haqqında elmlər sistemində yer alan müstəqil sahədir. O, təhsil və tərbiyə aspektində inteqrativ elmi istiqamət kimi səciyyələndirilir. Pedaqoji antropologiya məhz pedaqoji elmlər sistemində spesifik obyekti, predmeti, vəzifələri, problemləri və bu problemlərin həlli metodları olan, öz statusunu müəyyən etməyə, müstəqil elm kimi fəaliyyətə istiqamətlənmişdir.
2. Pedaqoji antropologiya pedaqogikada antropoloji yanaşmanı tədqiq edir və "elmi yanaşma təhsil hadisələri haqqında hər hansı biliyin korrelyasiyasını nəzərdə tutur və insan təbiəti haqqında biliklər əsasında prosesləri aparır, pedaqoji biliklərin mənimsənilməsini əlaqələndirir" (Stolyarenko, 2004, s. 34). Antropoloji yanaşmanın əsasını təlim-tərbiyə prosesini, şəxsiyyətin inkişafını digər elmlər sisteminə inteqrasiya yolu ilə öyrənən və antropoloji aksiomaya söykənən biliklər təşkil edir.
3. Pedaqoji antropologiyanın tədqiqatlarının əsasında XX əsrin ortalarında Qərbi Avropada humanitar sahədə aparılan antropoloji araşdırmalar dururdu. Bu araşdırmalar nəzəri-pedaqoji, fəlsəfi-antropoloji və insanşünaslığa aid biliklərin sintezinə əsaslanırdı. Belə tədqiqatlar xüsusilə, Almaniyada, İsveçrədə, Avstriyada daha çox aparılırdı.

Pedaqogikanın antropoloji məzmunu və strukturu pedaqoji differensiasiyada vacib məqamlardan biri kimi qəbul edilir. Məsələn, bu vaxta qədər təbii-elmi cərəyanlar insanı təbiətin bir hissəsi olan bioloji varlıq kimi qəbul edir və üstünlüyü insanın bioloji mahiyyətinə verirdilər. Sosial cərəyanlar isə insanı cəmiyyətin istehsal münasibətlərinin və məhsuldar qüvvələrinin mərkəzi fiquru kimi götürür, fərdi təfəkkürü kollektiv təfəkkür fonunda tədqiq edirdilər.

Pedaqogikada teoloji yanaşma insanın Allaha yaxın obrazda öyrənilməsinə və doqmatik yanaşmalara əsaslanırdı. Burada antropoloji yanaşma şəxsiyyətin inkişafına münasibətdə çoxfaktorluluğu və mənbələrin zənginliyi ilə fərqlənir. Belə ki, pedaqoq-antropoloqlar şəxsiyyətin inkişafında onun strukturunun həm bioloji, həm sosial, həm psixoloji, həm də mənəvi tərəflərini öyrənirlər. Onlar insan haqqında bu vaxta qədər mövcud olan biliklərə, insanşünaslığa əsaslanırlar. Bu baxımdan pedaqoq-antropoloqlar insanın öyrənilməsində elmlərarası inteqrasiyaya, interdissiplinar yanaşmaya daha çox yer verirlər və pedaqoji antropologiya üçün, demək olar ki, bütün elmlər mənbə rolunu oynaya bilər.

Pedaqoji antropologiyanın vəzifələri insanı həm tərbiyəedilən, həm də tərbiyəolunan kimi tədqiq etməyə istiqamətlənmişdir. Komenski insanda təhsil və tərbiyəyə olan ehtiyacı sosial varisliyin ən vacib alətləri kimi əsaslandırırdı və bunu belə ifadə edirdi: "Onlar olmadan insan yaranmayacaq: təbii ki, bütün doğulmuş insanların təhsilə ehtiyacı var ki, onlar insan ola bilsinlər və vəhşi heyvanlar, ağılsız heyvanlar deyil" (Komenski, 1981, s. 12).

Nəticə olaraq deyə bilərik ki, pedaqoji antropologiyanın əsas vəzifəsi insanı təlim-tərbiyə prosesində praktik olaraq dərk etmək, tanımaqdır. Təhsil vasitəsilə insan təbiətinə nüfuz etməklə onu hərtərəfli öyrənmək olar. Bu mənada, pedaqoji antropologiya bəşər tarixinin bütün dövrlərində insan təbiətinin sosial-pedaqoji və bioloji həqiqətlərini üzə çıxarmalıdır. Pedaqoji antropologiya haqqında fundamental əsərin müəllifi K.D.Uşinski yazırdı ki, "əgər pedaqogika insanı hər cəhətdən tərbiyə etmək istəyirsə, deməli ilk növbədə onu hər cəhətdən tanımalıdır".

*Onun bu yanaşması insanın sosial-pedaqoji inkişafının öyrənilməsi baxımından aksiom olaraq qalmaqdadır:*

"Tərbiyəçi insanı ailədə, cəmiyyətdə, bütün yaş dövrlərində, bütün siniflərdə, istənilən vəziyyətlərdə, həm sevinc, həm kədərdə, alçaldılmış vəziyyətdə, xəstə və fiziki-mənəvi qüvvəsinin, ümidlərinin tükəndiyi, insan təsəllisinin aciz olduğu ölüm anında tanımağı bacarmalıdır. O, ən çirkin və ən uca əməllərin arxasında dayanan motivləri, cinayətkar və böyük düşüncələrin yaranma tarixini, hər bir ehtirasın, hər bir xarakterin inkişaf tarixini bilməlidir. Yalnız bundan sonra o, insanın təbiətində tərbiyəvi təsir vasitələrini müəyyən edə biləcək—və bu vasitələr çox böyükdür" (Uşinski, 1990, s. 89).

*Müasir dövrün bir sıra tədqiqatçıları da özlərindən əvvəlki sələflərinin fikirlərinə istinad edirlər və onların bəzilərinin fikirləri maraqlıdır:*

B.M.Bim-Badın fikrincə, "Pedaqoji antropologiya bəşəriyyətin öyrənilməsidir, insanların təhsilinə və təliminə xidmət edir. O, insanların necə insanlaşdığını və müxtəlif yaşlarda olan insanların bir-birinə necə təsir etdiyini anlamağa çalışır. Uşağın həyatın müxtəlif mərhələlərində nə qədər təhsilli və tərbiyəli olması haqqında, şəxsiyyətin inkişafının səbəbləri və təkamülü haqqında müəyyən qədər dəqiq mənzərə yaradır" (Bim-Bad, 1998, s. 13).

G.M.Kodzhaspirova qeyd edir ki, bu gün pedaqoji antropologiyanın bir çox təfsiri və tərifi mövcuddur—təhsil prosesində insanın müstəqil bir elmi kimi, elmlər kompleksi kimi və s. (Kodzhaspirova, 2012, s. 11–12).

## Nəticə

Nəticə olaraq qeyd etmək lazımdır ki, pedaqoji antropologiya insanın insan kimi formalaşmasının təkamül prosesini, müxtəlif yaş dövrlərində insanların bir-birinə münasibətini, şəxsiyyətlərarası münasibətlər sisteminin mahiyyətini, ünsiyyəti öyrənməyə çalışır.

*Pedaqoji antropologiyada bir-biri ilə üzvi şəkildə bağlı olan dörd problemin tədqiqatı, eyni zamanda bu problemlərə aid olan alt mövzular öyrənilir ki, buraya da aşağıdakılar daxildir:*

1. İnsanı tərbiyəçi, müəllim, mentor kimi tanımağın yolları;
2. İnsanın inkişaf prosesində tərbiyənin rolu və yeri;
3. İnsanın insan tərəfindən (tərbiyəçi, valideyn, müəllim, mentor) tərbiyəsi;
4. İnsanın cəmiyyət tərəfindən tərbiyə edilməsi.

Pedaqoji antropologiya üçün mənbə rolunu insana aid olan bütün sahələr və antropologiyanın digər istiqamətləri (mədəniyyət, təhsil, din, sənət və s.) oynayır.

Ümumi antropoloji düşüncənin mərkəzində dayanan İnsanşünaslıq həm *Homo sapiens* haqqında, həm də ona qədər mövcud olmuş təbii təfəkkürün inkişafı ilə bağlı antropologiyanın fundamental əsasını təşkil edir. Pedaqoji antropologiya insana aid ilkin məlumatları şərh etməklə bərabər, həm də antropoloji elmi istiqamətləri ümumiləşdirir, təbii-elmi və sosial-humanitar bilikləri özündə sintez edir, özünü ümumi fənn kimi təsdiq edir.

Pedaqoji antropologiya özü üçün materialı insan haqqında bütün elmlərdən götürür və beləliklə də din, mədəniyyət, sivilizasiyalar haqqında sistemli biliklər, bəşəriyyətin bu vaxta qədər əldə etdiyi sosial təcrübə onun üçün ən geniş mənbə hesab edilir. O, eyni zamanda, təbii və humanitar elmlərin, ümumi antropoloji elmlərin interpretasiyasına da əsaslanır.

Nəticə olaraq onu demək olar ki, bu gün bir çox inkişaf etmiş ölkələrin ali təhsil müəssisələrində pedaqoji antropologiya daha çox "sosial-pedaqoji antropologiya" adı ilə paralel çəkilir və bu istiqamətdə bir çox tədqiqatlar aparılmışdır.

Təəssüf ki, Azərbaycan pedaqoji elm məkanında pedaqoji antropologiya ilə bağlı heç bir tədqiqata rast gəlmədik. Doğrudur, ayrı-ayrı tarixi dövrlərdə təhsilin tarixi ilə bağlı araşdırmalar aparılmışdır, ancaq onların məhz antropologiya ilə üzvi şəkildə tədqiq edilməsi həm pedaqoji fikir tariximizi, həm təhsil tariximizi, həm də ölkəmizin tarixini daha da zənginləşdirər.

## Ədəbiyyat

1. Bim-Bad, B. M. (1988). O perspektivakh vozrozhdeniya pedagogicheskoy antropologii. *Sovetskaya pedagogika*, *(11).*
2. Bim-Bad, B. M. (1998). *Pedagogicheskaya antropologiya: Uchebnoe posobie*.
3. Comenius, J. A. (1981). Velikaya didaktika. In *Khrestomatiya po istorii zarubezhnoy pedagogiki* (pp. 80–162). Prosveshchenie.
4. Kapterev, P. F. (1982). Pedagogicheskiy protsess. In *Izbrannye pedagogicheskie sochineniya*.
5. Kodzhapirova, G. M. (2005). *Pedagogicheskaya antropologiya: Uchebnoe posobie*.
6. Korolkov, A. (1986). *Pedagogicheskaya antropologiya v zerkale filosofii*.

7. Maksakova, V. I. (2004). *Pedagogicheskaya antropologiya: Uchebnoe posobie dlya studentov vysshikh pedagogicheskikh uchebnykh zavedeniy*. Akademiya.
8. Məmmədov, H. Q., & Tağıyev, A. İ. (n.d.). *Antropologiya: Dərslik*.
9. Mollayeva, E. Ə. (2023). Gender antropologiyası sosial-pedaqoji antropologiyanın əsas istiqamətlərindən biri kimi. *Kurikulum, 16(1 [61]),* 16–21.
10. Pirogov, N. I. (1985). Voprosy zhizni. In *Izbrannye pedagogicheskie sochineniya*.
11. Stolyarenko, V. E. (2004). *Antropologiya: Sistemnaya nauka o cheloveke*.
12. Ushinsky, K. D. (1990). Chelovek kak predmet pedagogicheskoy antropologii. Opyt pedagogicheskoy antropologii. In *Pedagogicheskie sochineniya* (Vols. 5–6).

Daxil oldu: 14.10.2025
Qəbul edildi: 08.01.2026